SOSİAL
İŞ
MƏKTƏBİ

# 2022-Cİ İLİN İLLİK HESABATI




www.sosialishmektebi.com

Bakı şəh, Azərbaycan




# SOSİAL İŞ MƏKTƏBİ HAQQINDA

Sosial İş Məktəbi 2021-ci ildə xaricdə təhsil almış peşəkar sosial iş üzrə mütəxəssislər tərəfindən yaradılmışdır. Əsas məqsədimiz əhalinin ehtiyaclarına uyğun mütəxəssislər hazırlamaqla sosial xidmətlərin keyfiyyətini yüksəltməkdir.

Sosial İş Məktəbi sosial iş tələbələri və müəllimləri, eləcə də müxtəlif dövlət və özəl təşkilatların sosial işçiləri və sosial xidmətçiləri üçün nəzərdə tutulmuş bir sıra proqramlar və kurslar təqdim edir.

Sosial İş Məktəbinin göstərdiyi xidmətlərə sosial iş peşəsi ilə bağlı peşəkar inkişaf kursları, təlim və vebinarlar, tədqiqat və qiymətləndirmə, sosial iş ixtisası ilə bağlı dərslik materiallarının hazırlanması, onlayn resurs mərkəzi və sosial işçilər və sosial iş tələbələri üçün təhsil və karyera məsləhəti aiddir.

Sosial İş Məktəbinin ekspertləri arasında universitetlərin kafedra müdirləri, sosial işçilər, sosial iş üzrə müstəqil ekspertlər, psixoloqlar, sosial sahədə dövlət orqanlarının nümayəndələri var.

**Hörmətlə,**
**Xanbala Əhmədli**
**Sosial İş Məktəbinin direktoru**



# KOMANDAMIZ



**Xanbala Əhmədli**
SİM-in Direktoru



**Lamiyə Rzayeva-Əhmədli**
SİM-in Həmtəsisçisi




**İlahə Şıxıyeva**
Təhsil Proqramları üzrə Koordinator



**Ruhəngiz Əhmədova**
SİM-in Peşəkar İnkişaf Mərkəzinin rəhbəri



**Pünhani Əsgərli**
SİM-in Sosial İnkişaf və Sosial Tədqiqat Mərkəzinin rəhbəri

2022-ci ilin yekunlarına əsasən, Sosial İş Məktəbi 1 il ərzində 6 onlayn kurs həyata keçirmişdir. Bu kurslara "Sosial İşə Giriş", "Ailələrlə Sosial İş", "Sosial Siyasət" və "Psixodiaqnostik metodlar" aiddir. Bu kurslar arasında sosial işə giriş kursa tələbin çoxluğunu nəzərə alaraq 3 dəfə həyata keçirilmişdir.



1 il ərzində həyata keçirdiyimiz kurslarda ümumilikdə 51 nəfər iştirak etmişdir. İştirakçılardan 40 nəfər qadın, 11 nəfər isə kişi idi.




Ümumilikdə kurslarımız minimum 4 modul, maksimum isə 9 moduldan ibarət olub. Kursların sillabusları kursu keçəcək mütəxəssislər tərəfindən Sosial İş Məktəbinin sillabus nümunəsi əsasında hazırlanır və kurs başlamamışdan əvvəl tələbələrlə paylaşılır.

Sosial İş Məktəbinin kurslarını müvəffəqiyyətlə bitirən tələbələr məktəbin məzunları sayılır və onlar üçün məktəbdə bir sıra imtiyazlar müəyyənləşdirilib ki, məzunlar məktəbin təqdim etdiyi bir çox xidmətlərdən ödənişsiz şəkildə istifadə edə bilirlər. Həmçinin məzunlar üçün həftəlik və ya aylıq seminarlar təşkil edilir.

# Kurslarımızın İCMALI

Sosial İş Məktəbinin həyata keçirdiyi kursların əsas məqsədi keyfiyyətli təhsil proqramları yaratmaqla sosial iş sahəsində təhsil alan tələbələrin, bu sahədə işləyən mütəxəssislərin keyfiyyətli təhsilə əlçatanlığını artırmaqdır.



## Sosial İş Məktəbinin vebinarları

2022-ci il ərzində Sosial İş Məktəbi tərəfindən sosial iş tələbələri, sosial işçilər və bu sahədə çalışan mütəxəssislər üçün **12 onlayn vebinar sessiyası** təşkil etmişdir. Ümumilikdə bu vebinarlarda ortalama 250-300 nəfər iştirak etmişdir. SİM-in vebinarları aşağıdakı mövzulara həsr olunmuşdur: Ailədaxili münasibətlərin psixoloji əsasları, Ailələrlə sosial iş, Kliyentlə iş prosesində şəxsi inkişafın rolu, Kliyentlə iş prosesində bədən dilinin rolu, Sosial işdə sosial tədqiqatın əhəmiyyəti, Uşaq inkişafı və uşaq müdafiə sistemi, Xaricdə sosial iş təhsili, Sülh quruculuğu və sosial iş, Akademik yazıya giriş, Sosial işçilərlə sual-cavab.

## Sosial İş Məktəbinin təlimləri

Sosial İş Məktəbi komandası 2022-ci il ərzində **6 təlim** həyata keçirmişdir. Həyata keçirilən təlimlərə aşağıdakılar daxildir: Dəstəkçi platformasının üzvləri üçün və Education HUB üçün "Networking" mövzusunda təlimlər, Türkiyəli mütəxəssis Dr. Ezgi Yaman Kennedyinin "İnsan alveri qurbanları ilə sosial iş" təlimi, İrəli Sosial İş Mərkəzinin Essentials of Social Work layihəsində ekspertlərimiz Ruhəngiz Əhmədova "Kliyentlə iş prosesində bədən dilinin rolu" və Pünhani Əsgərlinin "Sosial siyasət" və Lamiyə Rzayeva-Əhmədlinin "Xaricdə sosial iş" mövzusunda təlimləri daxildir.

## Sosial İş Məktəbinin seminarları

Həmçinin 2022-ci il ərzində Sosial İş Məktəbi sosial iş tələbələri və sosial işçilər üçün **7 seminar** təşkil etmişdir. Seminarlarımıza Türkiyəli mütəxəssis Dr. Ezgi Yaman-Kennedyinin "Qaçqın və miqrantlarla sosial iş", Gülnarə Pənahovanın "Əlilliyi olan şəxslərlə sosial iş", Xanbala Əhmədlinin Xaricdə sosial iş təhsili və Akademik yazıya giriş, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistr tələbələri üçün elmi işlərin yazılması seminarı, Lamiyə Rzayeva-Əhmədlinin ASAN Xidmətin könüllüləri və Böyük Dayaq İctimai Birliyinin üzvləri üçün sosial iş və sosial inkişaf seminarları daxildir.



## Avstriyanın Linz şəhərində "Beynəlxalq Sosial İş Günləri" konfransında iştirak etmişik.

Avstriyanın Yuxarı Avstriya Tətbiqi Elmlər Universitetinin Linz şəhərində yerləşən kampusunda "Beynəlxalq Sosial İş Günləri" konfransında Sosial İş Məktəbinin direktoru Xanbala Əhmədli, həmtəsisçici Lamiyə Rzayeva-Əhmədli və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru Sədaqət Əliyeva iştirak etmiş və "Azərbaycanda sosial iş təhsili" mövzusunda müzahirə keçmişdir.

## Sosial İş Məktəbinin həmtəsisçisi Lamiyə Rzayeva-Əhmədli Böyük Britaniyada sosial iş tələbələri üçün mühazirə keçib.

Böyük Britaniyanın Plymouth Universitetinin sosial iş proqramının rəhbəri Dr. Andy Jollyin dəvəti ilə həmin universitetin bakalavr pilləsində təhsil alan sosial iş tələbələri üçün "Beynəlxalq sosial iş: Azərbaycanda sosial iş" mövzusunda mühazirə keçmişdir.








## 2022-ci ildə Sosial İş Məktəbi Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyasının (SİMBA) üzvü oldu

ISIMBA-nın məqsədi sosial ədalət, insan hüquqları və insan rifahını artırmaq üçün qlobal miqyasda sosial iş təhsili, tədqiqat və təqaüd sahəsində mükəmməlliyi inkişaf etdirmək və təşviq etməkdir. SİMBA sosial iş üzrə pedaqoqların və proqramların dinamik icması üçün çalışır və qarşılıqlı məlumat və təcrübə mübadiləsində iştiraka dəstək verir. SİMBA həmçinin BMT-də sosial iş təhsilini beynəlxalq səviyyədə təmsil edilir.

Sosial İş Məktəbi SİMBA-ya üzv olmaqla beynəlxalq miqyasda sosial iş məktəbləri üçün yaradılmış imkanlardan əlverişli şəkildə istifadə edəcək və dünyanın bir çox yerlərindən olan soisal iş mütəxəssisləri ilə əlaqə quracaq.

## Sosial İş Məktəbinin veb saytında 2022-ci ildə 20 məqalə və bloq post paylaşılıb

2022-ci il ərzində Sosial İş Məktəbinin ekspertləri tərəfindən ümumilikdə 20 məqalə və bloq post veb saytda yerləşdirilib. Bunlara sosial iş, sosial müdafiə, sosial tədqiqat, gənclərlə iş, gender, könüllülük və peşəkar inkişaf ilə bağlı yazılar daxildir.



Sosial İş Məktəbinin fəaliyyətlərində aktiv iştirak edən hər kəsə çox sağ ol deyirik və həmçinin öz komandamıza töhfələrinə görə təşəkkür edirik!

# Minnətdarlıqlar

2022-ci ilin illik hesabatını hazırlamaqda kömək göstərən bütün komanda üzvlərimizə təşəkkür edirik:

- Xanbala Əhmədli
- Lamiyə Rzayeva-Əhmədli
- İlahə Şıxıyeva

Həmçinin 1 il ərzində Sosial İş Məktəbdə kurs, təlim və vebinar keçən mütəxəssislərə və SİM-in ekspertlərinə öz dərin minnətdarlığımızı bildiririk:

- Lamiyə Rzayeva-Əhmədli
- Gülnar Abbasova
- Pünhani Əsgərli
- Ruhəngiz Əhmədova
- Gülnarə Pənahova
- Könül Cəfərova
- Tamilla Əlizadə
- Tünzalə Verdiyeva
- Məftunə İsmayılova
- Leyla Məmmədxanlı
- Tərlan Tağıyeva
- Günay Lachman İsmayılova
- Ezgi Yaman-Kennedy

**Dəstək üçün xüsusi minnətdarlığımızı bildiririk:**

- Sədaqət Əliyeva - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru
- Gülnarə İsmayılova - Education HUB-ın proqram meneceri
- Baku Community Space komandası
- BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən Avropa İttifaqının maliyyə dəstəyilə həyata keçirilən layihə çərçivəsində fəaliyyət göstərən resurs mərkəzi

**Sosial İş Məktəbi**
Bakı, Azərbaycan
+99455 813 20 21
www.sosialishmektebi.com
sosialishmektebi@gmail.com